***Bu gün Azərbaycanda müasir idarəetmə modelinin qurulması istiqamətində ardıcıl tədbirlər həyata keçirilir. Gerçəkləşdirilən islahatların əsas məqsədi səmərəli və demokratik idarəçiliyin formalaşdırılması, dövlət orqanlarının fəaliyyətində şəffaflığın, operativliyin, çevikliyin artırılması, xidmətlərin daha keyfiyyətli, rahat və müasir innovasiyalarla reallaşdırılması və nəticə etibarilə ölkə vətəndaşlarının rifah və məmnunluq səviyyəsinin təmin olunmasıdır.***

# Nizami və Kəpəz inzibati ərazi bölgüsünün ləğvi Gəncədə daha səmərəli və optimal idarəçilik mexanizminin yaradılması ilə nəticələnəcək



Prezident İlham Əliyevin təşəbbüsü və rəhbərliyi ilə son illər ərzində bu istiqamətdə müasir idarəetmə modelinin qurulması, demokratik mexanizmlərin yaradılması vətəndaş – məmur münasibətlərində yeni düşüncə tərzinin, kadr potensialının formalaşmasına, korrupsiya yarada bilən səbəblərin aradan qalxmasına mühüm təsir göstərib.

Dövlətimizin başçısı son çıxışlarında sosial-iqtisadi sahələrdə, eləcə də idarəetmə strukturunda ciddi islahatların gerçəkləşdirilməsi barədə ətraflı bəhs edərək, diqqəti icra hakimiyyətlərinə nəzarətin gücləndirilməsinin, qanunların icrasında boşluqların aradan qaldırılmasının zəruriliyinə yönəldib. Ölkə rəhbərinin 17 mart 2020-ci il tarixli “Dövlət idarəçiliyində səmərəliliyin artırılması ilə bağlı əlavə tədbirlər haqqında” sərəncam imzalaması da bunun bariz ifadəsidir.

Sərəncamda deyilir ki, dövlət idarəçiliyinin təkmilləşdirilməsi istiqamətində respublikada çoxşaxəli işlər görülməkdədir. Müasir dövrün çağırışlarından biri kimi, dövlət orqanları və qurumlarının fəaliyyətinin səmərəlilik göstəriciləri əsasında qiymətləndirilməsi sisteminin mərhələlərlə işlənməsi və tətbiqi dövlətimizin diqqət mərkəzindədir.

Aparılan sosial-iqtisadi islahatlar, regionların inkişafına dövlətin göstərdiyi qayğı və diqqət nəzərə alınaraq, bölgələrdə sosial-iqtisadi inkişafın tamamilə yeni mərhələyə qədəm qoyması məqsədilə digər əməli tədbirlərlə yanaşı, səmərəliliyin qiymətləndirilməsi sisteminin yerli icra hakimiyyəti orqanlarının fəaliyyətinə də şamil olunması imkanları təhlil edilməli və ən qabaqcıl dünya təcrübəsinin ölkəmizdə tətbiqinə başlanılmalıdır. Eyni zamanda, dövlət nəzarətinin təşkili və icra intizamına əməl olunması istiqamətində görülən işlərin səmərəliliyinin artırılmasına, bu sahədə daha əhatəli və çevik mexanizmlər yaradılmasına ehtiyac var.

Son günlər Gəncə şəhəri Nizami və Kəpəz rayonları inzibati ərazi bölgüsünün ləğv edilməsi ilə bağlı fikirlərin səsləndirilməsi zamanı da məhz yuxarıda vurğulanan məqamlara istinad olunur. Bu zaman respublikada dövlət idarəçiliyinin optimallaşdırılması, şəffaflaşdırılması, onun operativliyinin və səmərəliliyinin yüksəldilməsinin Prezident İlham Əliyev tərəfindən həyata keçirilən islahatların mühüm tərkib hissəsi olduğu diqqətə çatdırılaraq, müxtərif vaxtlarda yerli və mərkəzi icra orqanlarının strukturu, fəaliyyət istiqamətləri, prinsipləri, vəzifə və öhdəliklərinin dəqiqləşdirilməsi, paralelliyin aradan qaldırılması, qərarların çevik qəbul olunması, habelə vəzifələrin mümkün qədər səmərəli icrası ilə bağlı qanunvericilik təşəbbüsləri irəli sürüldüyü xatırladılıb. Bildirilib ki, hazırda həyata keçirilən islahatlar paketinin mühüm tərkib hissəsi kimi Milli Məclis, Prezident Administrasiyası və Nazirlər Kabinetində reallaşdırılan struktur dəyişiklikləri öz müsbət nəticələrini verib.

**Bununla bağlı Milli Məclisin deputatı Naqif Həmzəyev mətbuata bildirib:** “Bu gün dövlət orqanlarının fəaliyyətində müşahidə olunan operativlik, ictimai rəyə, vətəndaşların problemlərinə həssas yanaşma, bürokratik əngəllərin, korrupsiya, rüşvətxorluq və digər neqativ hallara qarşı kəskin mübarizə əhali tərəfindən təqdir olunur, yeni idarəetmə fəlsəfəsi ictimai rəydə daha çox rəğbət qazanır. Bütün bunlar göstərir ki, qarşıdan gələn dövrdə də yerli və mərkəzi icra orqanlarının fəaliyyətinin optimallaşdırılması ilə bağlı tədbirlər davam etdiriləcək. Gəncə şəhəri Nizami və Kəpəz rayonları inzibati ərazi bölgüsünün ləğv edilməsi ilə bağlı irəli sürülən təşəbbüs də ölkənin ikinci böyük şəhərində idarəetmənin keyfiyyətinin yüksəldilməsi və vətəndaşların rahatlığının, məmnunluğunun təmin edilməsi məqsədi daşıyır. Əhalisinin sayına görə Gəncə şəhərinə yaxın olan Sumqayıt şəhərinin nümunəsi göstərir ki, idarəçiliyin bir mərkəzdən həyata keçirilməsi daha səmərəli və optimal mexanizmdir”.

Deputat daha sonra qeyd edib ki, təşəbbüs reallaşacağı təqdirdə vətəndaşların müraciətlərinə baxılma mexanizmi sadələşəcək, onların problemləri daha çevik şəkildə həll olunacaq, idarəetmə sistemində çoxpillələlik, paralellik, təkrarçılıq, bürokratiya, süründürməçilik və digər bu kimi neqativ hallar aradan qaldırılacaq.

İqtisadçı alim, Milli Məclisin deputatı Vüqar Bayramov isə sözügedən təşəbbüsü şərh edərkən bildirib: “Gəncə şəhərinin Nizami və Kəpəz rayonları inzibati ərazi bölgüsünün ləğvi və idarəçiliyin şəhər administrasiyasında cəmləşməsi əhalinin sosial-mədəni və məişət ehtiyaclarının ödənilməsini gerçəkləşdirəcək, habelə qanunçuluğun təmin edilməsi ilə bağlı qərarların icrasının səmərəliliyini daha da artıracaq. Bu yolla, həm də büdcə vəsaitlərinin sərfiyyatına qənaət olunacaq”.

V.Bayramov daha sonra vurğulayıb: “Yerli icra hakimiyyəti orqanlarının fəaliyyətinin təkmilləşdirilməsi bölgələrə investisiyanın cəlb edməsi baxmından da çox vacibdir. Ölkə başçısı da bir müddət əvvəl regionlara yerli və xarici investisiyanın daha çox cəlb edilməsi ilə bağlı göstərişlər verdi. Bu baxımdan gözlənilir ki, aparılan kadr və struktur islahatlarının davamı olacaq. Bu, eyni zamanda, bürokratik əngəllərin aradan qaldırılmasına gətirib çıxaracaq”.

Beləliklə, hər iki deputatın fikirlərindən belə bir qənaət hasil olur ki, Gəncə şəhəri Nizami və Kəpəz rayonları inzibati ərazi bölgüsünün ləğv edilməsi ilə vətəndaşların müraciətlərinə baxılma mexanizmi sadələşdiriləcək, vətəndaşların problemləri daha çevik şəkildə aradan qaldırılacaq. İdarəetmə sistemnidə süründürməçiliyə və digər bu kimi neqativ hallara son qoyulacaq. Bütün bunlarla bərabər, böyük idarəetmə aparatının ləğv edilməsi ilə büdcə vəsaitlərinin sərfiyyatına qənaət olunması reallaşacaq.

Deputatlar tərəfindən belə bir təşəbbüsün irəli sürülməsi zamanı Gəncə şəhər sakinlərinin rəylərinin öyrənilməsinin zəruriliyi də diqqətə çatdırılıb.

**V.BAYRAMOV,**
**“Xalq qəzeti”**